

# Arif BUZOVNALI

*Amansız ölüm tanınmış şair, qəzəlxan, tədqiqatçı, şeirşünas, Azərbaycan Yazıçılar Birliyinin Xəzər (Bakı) bölməsinin sədri Əliyev Arif Rauf oğlunu (Arif Buzovnalı) aramızdan apardı.*

*Arif Buzovnalı 1972-ci ildə 6 sentyabr tarixində Bakının Buzovna qəsəbəsində ziyalı ailəsində dünyaya gəlib. 1979-1989-cu illərdə Buzovna qəsəbəsindəki 26 saylı orta məktəbdə təhsil alıb. 1990-cı ildə hərbi xidmətə yollanıb, 1992-ci ildə Sovet ordusunda (sonradan MDB ordusu) xidmətini başa vurub. 1993-cü ildə Azərbaycan Pedaqoji İnstitutuna daxil olsa da, təhsilinə başlamadan könüllü olaraq Qarabağ cəbhəsinə gedib və atəşkəsə qədər (1994-cü il 1 may) Əzizbəyov adına Könüllülər Batalyonunda döyüşüb.*

*Arif Buzovnalının ədəbi fəaliyyəti erkən yaşlarına təsadüf edir. 1991-ci ildə ilk şeiri "Azərbaycan Gəncləri" qəzetində çap olunub.*

*O, Bakıda və Abşeronda fəaliyyət göstərən müxtəlif ədəbi məclislərin, o cümlədən "Füzuli" və "Məcməüş-şüəra" məclislərinin üzvü olub. Mütəmadi olaraq dövrü mətbuatda "Azərbaycan Gəncləri", "Kaspi", "İki sahil", "Yol", "Olaylar", "Ədəbiyyat qəzeti", "Tək səbir", "Nəbz", "Şəhriyar" və başqa qəzetlərdə, həmçinin "Hikmət", "Kəlam", "Ulduz", "Karvan", "Azərbaycan" jurnallarında bədii əsərləri və müxtəlif mövzulu məqalələri ilə çıxış edib.*

*2003-cü ildə Təbrizdə keçirilən "Şeri-tənz" Beynəlxalq şeir müsabiqəsinin qalibi olub.*

*2010-cu ildə Urmiyyədə keçirilən "Rəzəvi" Beynəlxalq Şeir Festivalının qalibi olub, 2011-ci ildən 2016-cı ilə qədər həmin festivalın türkdilli şeir üzrə münsifi olmuşdur.*

*2014-2021-ci illərdə Azərbaycan Dövlət Televiziyasında "Məclisi-Üns" verilişinin daimi iştirakçısı olmuşdur.*

*2018-2019-cu illərdə keçirilmiş 1-ci və 2-ci "Nəsimi - Şeir, incəsənət, mənəviyyat" festivalı çərçivəsində "Nəsimi məclisi" və "Bir qəzəlin şərhi" proyektlərinin müəllifi və aparıcısı olmuşdur.*

*2022-ci ildə Türkiyə Cümhuriyyətində keçirilmiş Beynəlxalq Türkologiya Kongresi professor Dk. Vüsalə Musalının "Çağdaş Azərbaycan ədəbiyyatında klassik gələnəyin davamı: Arif Buzovnalı sənəti" adlı tədqiqat işinə həsr edilmişdir.*

*Azərbaycan,Türkiyə, İran, Ukrayna, Rusiyada keçirilmiş bir çox elmi və ədəbi konfranslarda iştirak edib, müxtəlif diplom və mükafatlara layiq görülüb. Şeirləri xarici dillərə tərcümə edilib və müxtəlif ölkələrin mətbuatında çap olunub.*

*Ömər Xəyyam, Sergey Yesenin və Leyla Əliyevadan tərcümələri var.*

*2022-ci ildə 50 illik yubileyi münasibətilə haqqında təbriklər, ithaflar və məqalələrdən ibarət "Arif" kitabı çap olunub. Kitabda şairin həmkarlarının, müxtəlif elm və incəsənət xadimlərinin Arif Buzovnalı şəxsiyyəti və yaradıcılığı barədə yazıları toplanıb.*

*2011-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 2017-ci ildən "Poeziya klubunun", 2022-ci ildən AYB "Füzuli" komissiyasının sədri idi.*

*Qısa vaxt ərzində onun "Ömrün ötən anları", "Mərifətdən həqiqətə", "Səhərimə nə qalıb ki", "Xəzərim", "Sarı güllər", seçilmiş əsərləri, "Vadi", "Qəzəllər", "Məqalələr və şərhlər" kitabları çapdan çıxıb.*

*"Xətai və Füzuli... Düşüncələr", "Nəsimi bir baxışda", "Qırx qəzəl - Qırx şərh", "Çün "əhsəni təqvim" idi" kimi tədqiqat əsərlərinin müəllifi idi.*

*Səmimi insan, tanınmış şair-ədəbiyyatşünas Arif Buzovnalının xatirəsi onu tanıyanların yaddaşında əbədi yaşayacaq.*

**Allah rəhmət eləsin!**

Azərbaycan Yazıçılar Birliyi